# İşini ürəkdən sevəndə...



*Başqa bölgələrimiz kimi Xızı rayonunda da çox kadr dəyişikliyi aparılıb. Ümidi doğruldanlar qalıb işləsələr də etimaddan sui-istifadə edənlər vəzifə kreslosunu vaxtsız boşaldıblar. Bu günkü qonağımız birincilərdən olub. Sənanı deyirik – Xızı Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdir əvəzi Sənan Talıbovu! Gələn ay onun bu vəzifədə çalışmasının 2 ili tamam olacaqdır. Martın 16-da 43 yaşını qeyd edəcək. O həm də şöbə müdiri kimi iki ildə gördüyü işlərin hesabatını aparacaq.*

*Fərəhli haldır ki, onun danışmağa kifayət qədər sözü olacaqdır. İşlərin təhlili göstərir ki, Sənana qədər sanki burada yaddaqalan heç bir tədbir görülməyib. Təsadüfi deyil ki, S.Talıbov çox çətinliklərlə üzləşəsi olub. Amma bütün bunlar onu ruhdan salmayıb. Təyinat aldığı ilk günün səhəri kollektivi bir yerə toplayıb, nöqsanların ləğvi, işdə dönüş yaratmaq üçün qarşıda duran vəzifələrə aydınlıq gətirib. Sonra sözdən əmələ, vəddən işə keçilib, hər kəsin fəaliyyəti xüsusi nəzarətə götürülüb. Bu da öz növbəsində əməkdaşların məsuliyyətini artırıb.*

Yeri düşmüşkən şöbə müdiri fəal işçilərdən rayon mədəniyyət evinin müdiri Dünyamalı Ağayevin, müfəttiş Həcər Rəsulovanın, rayon mədəniyyət evinin bədii rəhbəri Bəhiyyə Nuriyevanın, eləcə də digər mədəniyyət işçiləri Mehriban Cəfərova, Elnarə Məmmədova, Zahirə Abbasova, Rafiq Kərimov, Camal Hüseynov və Aytən Abbasovanın adlarını çəkərək qədəm qoyduğumuz 2006-cı ildə də uğur qazanmaq üçün onlara arxalandığını bildirdi.

– Ən çox fərəh doğuran Mikayıl Müşfiqlə bağlı tədbirlərimizdir. Rəsm müsabiqəsi keçirdik. Bakı şəhər 18 saylı məktəblə yarışırıq. Bu artıq bir ənənəyə çevrilib. İndiyədək ictimai əsaslarla fəaliyyət göstərən Müşfiq muzeyinə 8 vahid ştat yeri açılması xüsusi sevincimizə səbəb olmuşdur. C.Cabbarlının ev-muzeyində abadlaşdırma işləri aparmışıq. Maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə musiqi məktəbinə pianino alınıb, müəssisələrimizə 100-dən artıq stul, 1 faks aparatı, 3 şkaf servantı, 1 şkaf, 6 kreslo, 9 çil-çıraq, 1 mikrofon və s. verilib. 8000 nüsxə bölünmüş kitabdan 7500-ü kitabxanalarımız arasında paylaşdırılıb. Şuraabad qəsəbə mədəniyyət evi neçə illər idi ki, fəaliyyətsiz idi. Burada kadr dəyişikliyi aparıldı. Xatirə gecəsi keçirildi. Tədbir Bakıdan gəlmiş qonaqların iştirakı ilə yadda qaldı. Yüksək səviyyədə təşkil olunmuş gecəni öz əməkdaşlarımız apardı. Milli Dram Teatrı və İrəvan Dövlət Azərbaycan Teatrının hər birisi iki tamaşa ilə rayon əhalisinə xüsusi sevinc bəxş etdi.

Musiqi məktəbimizin fəaliyyətində dönüş yaratmaq üçün də müəyyən işlər görülmüşdür. Yeri düşmüşkən qeyd edim ki, məktəbimiz üçüncü ildir fəaliyyət göstərir. Burada 100 uşağın təhsili ilə 18 müəllim məşğul olur. Onlardan 9-u Konservatoriyanın məzunudur. Fortepiano, səs-muğam, pianino, nağara və başqa ixtisaslar tədris edilir. Məktəbimizin «Dağlar yurdu» ansamblı öz dəst-xətti ilə fərqlənir.

*Bütövlükdə şöbəmiz özündə 24 mədəni-maarif müəssisəsini birləşdirir. Burada 105 nəfər çalışır. Məqsədimiz odur ki, 2005-ci ildə qazandığımız uğurlarla kifayətlənməyək. Odur ki, cari ildə əlamətdar və tarixi günlər, yubileylərlə bağlı tədbirlərimizi, hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində görəcəyimiz işləri daha yüksək səviyyədə quracağıq.*

**Tural**





